# Yeni enerji çağına qətiyyətli addım



***Martın 5-də Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin daha da gücləndirilməsi fonunda strateji əhəmiyyətə malik olan layihənin açılışı baş tutub. Söhbət İğdır-Naxçıvan qaz kəmərindən gedir.***

***1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Sovet İttifaqı tərəfindən Qərbi Zəngəzurun Ermənistan SSR-ə birləşdirilməsi nəticəsində Naxçıvanın Azərbaycanla quru əlaqəsi kəsilib. Bu, xüsusilə, Naxçıvanın müdafiə və enerji təminatında ciddi problemlər yaradıb. Uzun illər bölgənin enerji təminatının şaxələndirilməsi və təhlükəsizliyinin təmin edilməsi mühüm müzakirə mövzusu olub.***

1990-cı illərin əvvəllərində isə Qarabağ müharibəsi ilə bağlı Naxçıvanın blokadası bu problemləri daha da dərinləşdirib. Naxçıvanın müdafiə olunmasında ən mühüm faktorlardan biri isə Türkiyənin dəstəyi və "Ümid" körpüsünün inşası olub. Bu körpü doğma diyarın Türkiyə ilə əlaqəsini təmin edərək bölgənin təbii ehtiyatlar və humanitar yardımlar baxımından dəstəklənməsinə imkan yaradıb.

Bu illər ərzində Naxçıvanın əsas enerji təchizatçısı İran olub. Naxçıvan diyarının Azərbaycanın digər əraziləri ilə quru əlaqəsi olmadığından başqa mənbələrdən qaz əldə etmək çox çətin idi. İranın qaz ötürmə şəbəkələri Naxçıvanın enerji tələbatını tam şəkildə qarşılamağa imkan versə də, enerji təchizatında zaman-zaman fasilələr və problemlər yaşanırdı. Bunun əsas səbəbi isə enerji infrastrukturunun köhnəlməsi və İranla ticarət əlaqələrinin qeyri-sabitliyi idi. Bu səbəblərə görə Naxçıvanın enerji təhlükəsizliyini daha dayanıqlı və müstəqil şəkildə formalaşdırmaq zərurətə çevrilmişdi. Bu məsələ 2023-cü il sentyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən öz həllini tapdı. İğdır-Naxçıvan qaz boru kəmərinin təməli qoyuldu. Kəmərin tikintisi həm iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin gücləndirilməsinə və Naxçıvanın müstəqil enerji təminatının həyata keçirilməsinə xidmət edir. Layihə bölgənin gələcəkdə enerji təminatının daha dayanıqlı olmasına kömək edir.

**(davamı 2-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan martın 5-də Ankarada Prezident İlham Əliyevlə birgə keçirilən mətbuat konfransında Naxçıvanın enerji təhlükəsizliyini uzun illər təmin edəcək bir layihənin əsasının qoyulduğuna xüsusi diqqət çəkdi: "İğdır-Naxçıvan təbii qaz boru kəməri enerji sahəsində daha əvvəlki strateji təşəbbüslərimizi tamamlayacaq, həmçinin Naxçıvan ilə ortaq taleyimizin bir nişanəsi olacaq. BOTAŞ tərəfindən inşa edilən 80 kilometr uzunluğunda, gündəlik 2 milyon kubmetrə qədər nəqletmə qabiliyyətinə malik bu kəmər xüsusilə Naxçıvanın təbii qaz ehtiyacının hamısını ən azı 30 il müddətində təmin edəcək. Beləliklə, Naxçıvanın enerji təhlükəsizliyini uzun illər təmin edəcək bir layihəni qardaşımla birlikdə ölkələrimizə qazandırmış oluruq".

İğdır-Naxçıvan qaz boru kəməri layihəsi mövcud enerji layihələrinə də dəstəkləyici təsir göstərir. Sözügedən kəmər Avropa və Asiya arasında enerji təchizatının şaxələndirilməsi və təhlükəsizlik aspektlərini müsbət istiqamətdə dəyişdirir. Bakı-Tbilisi-Ceyhan, TANAP və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri ilə də əlaqəli olduğundan yalnız Türkiyə və Azərbaycan üçün deyil, eyni zamanda Avropa və Asiya bazarlarına enerji ixracatını şaxələndirmək, həmçinin təhlükəsizliyi artırmaq məqsədi daşıyır. Digər tərəfdən, layihə həm də yerli iqtisadiyyatın inkişafına mühüm töhfə verir. Kəmərin inşası və istismarı nəticəsində regionda yeni iş yerləri yaradılır, mühəndislik və tikinti sahəsində təcrübə artır və mütəxəssislər yetişir. Eyni zamanda kəmərin istifadəyə verilməsi regionun enerji təminatını artırmaqla yanaşı, daha geniş coğrafiyada iqtisadi inkişafın sürətlənməsinə şərait yaradır.






İğdır-Naxçıvan qaz kəməri layihəsi yalnız iqtisadi və enerji sahəsində deyil, həm də siyasi və strateji baxımdan önəmlidir. İlk növbədə, o, iki qardaş ölkə arasında mövcud olan energetika sahəsindəki əməkdaşlığı dərinləşdirir. Türkiyə Azərbaycan qazını əldə edən əsas ölkələrdən biridir və bu layihə iki ölkə arasında enerji sahəsindəki qarşılıqlı əlaqələri və ticari əməkdaşlığı artırır. Kəmər həm də Bakı-Ankara birliyinin əyani təzahürü olaraq iki ölkə arasındakı dostluq və qardaşlıq münasibətlərinin simvoluna çevrilir. Martın 5-də İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar da məhz bu məqamı vurğuladılar. Pərviz Şahbazov bildirdi ki, İğdır-Naxçıvan qaz boru kəməri layihəsi Naxçıvanın qaz təchizatını şaxələndirməklə yanaşı, həm Naxçıvan, həm də İğdır əhalisinin rifahına xidmət edəcək: "Layihənin daha bir özəlliyi ondan ibarətdir ki, bu gün kəmərin maksimum ötürmə gücü 730 milyon kubmetrdirsə, gələcəkdə layihənin genişləndirilməsi imkanları da var".

Naxçıvanın enerji təchizatı məsələsi, regiondakı geosiyasi vəziyyətlə sıx bağlıdır. Bu kəmər Ermənistanın blokadası və enerji təchizatını sabotaj etmək cəhdləri qarşısında Naxçıvanı daha da na böyük bir töhfədir. Türk dünyasının birləşməsi yolunda əziz Qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edildi, həm türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yarandı. Azərbaycan da hər zaman türk dünyasının birləşməsinə çox böyük önəm verirdi və öz tərəfindən bu birliyi təmin etmək, bunu əbədi etmək və ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmirdi".

İğdır-Naxçıvan qaz kəməri vacib enerji layihəsi olmaqla yanaşı, həm də Türkiyə və Azərbaycanın birgə gücünü, həmrəyliyini və qardaşlığını nümayiş etdirən təşəbbüsdür. Bu layihə Türkiyə ilə Azərbaycan arasında əlaqələrin daha da dərinləşməsinə, regionda sülhün və sabitliyin qorunmasına, eləcə də Naxçıvanın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Layihənin uğurla tamamlanması isə hər iki ölkənin birgə əməkdaşlıqla böyük nailiyyətlər əldə edə biləcəyini göstərir. Bu layihənin gələcəkdə daha da inkişaf etdirilməsi isə bölgədəki digər enerji layihələrinin həyata keçirilməsinə də təkan verəcək.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 8 mart (№ 52).- S.1;2.